# 5000-ci "ƏDALƏT"

*Azərbaycan mətbuatında özünə cığır açan və bu cığırla durmadan, qətiyyətlə irəliləyən "Ədalət" qəzetinin 5000-ci nömrəsi işıq üzü görür. 1990-cı illərdə hələ müstəqillik qazanmamış ölkəmizdə yaradılan hüquq qəzeti dövrünün haqq-ədalət davasına öz töhfəsini verən qəzetlərdən biri oldu. Dövrünün çətinliklərinə baxmayaraq bir gün belə öz çapını dayandırmayan "Ədalət" qəzeti özünə məxsus yazı və informasiya stili ilə daim digər KİV-lərdən fərqlənib.*

*Milli Məclisin deputatı, yazıçı Aqil Abbasın rəhbərliyi altında qəzet bu şərəfli yolda hər bir çətinliyə sinə gərdi. "Ədalət" bir qəzet kimi cəmiyyəti maarifləndirməklə yanaşı bir məktəb rolunu oynayır. Azərbaycan mətbuatında, eləcə də ayrı-ayrı dövlət qurumlarında təmsil olunan sabiq ədalətçilər var.*



**10 ildən artıqdır ki, qəzetin baş redaktoru İradə Tuncaydır. İradə Tuncayın qəzetə rəhbərlik eləməsi "Ədalət"ə yeni nəfəs verdi. İradə Tuncay qəzetlə bağlı fikirlərini belə dilə gətirir:** "Ədalət" qəzetinin hər bir nömrəsinə, çapına çox gözəl bələdəm. Hələ burada işləmədiyim vaxtlara da bələdəm. Çünki bu qəzet mənim evimin içində yaranıb. Bu problemlərin hamısını özüm yaşamışam. Maddi problemləri də, mənəvi problemləri də, hətta fiziki problemləri də. Tutaq ki, qəzetin kağızı çatışmır, bu, artıq mənim evimin problemidir, gərginlik yaradır, qanqaraçılıq olur. Və yaxud da qəzet uğur qazanırsa, cəmiyyətdə tanınırsa, istər-istəməz ailəmizə təsir edir. Uzun illər Aqil Abbas adı ilə "Ədalət" qəzeti bir brend kimi birlikdə qəbul olunub. Aqil Abbas və "Ədalət" qoşa qanaddır, vəhdətdir və onları bir-birilərindən ayırmaq olmur. Amma qəzetin qalxma və enmə anları da mənim gözümün qabağında olub. Mən bunun obyektiv və subyektiv səbəblərini də bilirəm. Çalışmışam ki, kömək edim. Görünür, israr etməmişəm. Amma gərək edəydim. Düşünürəm ki, israr etsəydim, enmələr, qəbul etmədiyim şeylər olmazdı. Yəni hər insanın həyatında səhvlər olduğu kimi, görünür, şəxslərin həyatındakı dəyişmələr də istər-istəməz qəzetlərə yansıyır. Bax, bu problemləri görmək istəməzdim. Amma bunlar olub. Məsələn, mən qəzetimizin bir zamanları var ki, onu heç cürə qəbul edə bilmirəm. Təsadüfi insanların burada işləməyini, onların qəzetin adından istifadə etməsi ilə barışa bilmirəm. Ona görə də fikirləşirəm ki, mən o vaxt qəzetə gəlməli idim. Qəzetimizin qədin səliqəsinə ehtiyacı var idi. Mən gec gəlmişəm".

Bu yubiley münasibəti ilə "Ədalət" qəzetinə təbriklər gəlməkdədir.



**Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov:** "Başda Aqil Abbas və İradə Tuncay olmaqla "Ədalət" qəzeti kollektivinin hər bir üzvünü nəşrin 5000-ci sayının işıq üzü görməsi münasibəti ilə ürəkdən təbrik edirəm. "Ədalət" dövrün, zamanın tələbindən yaranan qəzetdir. Milli istiqlal ideyalarının cəmiyyəti cənginə aldığı, üfüqdə dövlət müstəqilliyinin göründüyü bir dövrün və zamanın. Fəaliyyətə başlayınca qəzet qurulacaq yeni cəmiyyəti necə görməyin arzusunda idi. Ötən müddətdə "Ədalət" qəzeti öz fəaliyyəti ilə ədalətli cəmiyyət üçün çarpışan mətbuat orqanlarımızdan birinə çevrildi. Onun dəst-xətti, hadisə və proseslərə yanaşma tərzindəki məxsusilik də bundan qaynaqlanır. "Ədalət" bu gün də dəst-xəttinə sadiqdir. Peşəkar jurnalistlərin toplaşdığı qəzet geniş oxucu auditoriyasına malikdir. Nəşrdə dərc edilən hər bir məqalə ictimai məzmun daşımaqla ənənələrə sadiqlik ruhuna əsaslanır. Əminəm ki, bu cəhət onu yaşadacaq və yeni əlamətdar günlərə səsləyəcək.

"Ədalət" qəzeti kollektivini nəşrin 5000-ci sayının işıq üzü görməsi münasibəti ilə bir daha təbrik edirəm. Əziz həmkarlar, xoş gününüz düşərli olsun. Hər birinizə möhkəm can sağlığı, xoşbəxtlik və yeni yaradıcılıq uğurları arzulayıram".



**Millət vəkili Rafael Cəbrayılov:** "Azərbaycan tarixinin ən çətin və təzadlı dönəmində, 1990-cı ildə respublikamızın ictimai-siyasi həyatına "Ədalət" qəzetinin gəlişinin hadisə olması tezliklə hamıya aydın oldu. Çünki "Ədalət" respublikamızın informasiya məkanına ədalət gətirdi. Belə ki, xalqımızın milli azadlıq hərəkatının geniş vüsət almasında və Sovet imperiyasının dağılmasında, Azərbaycanın dövlət müstəqilliyinin bərpa edilməsində, daha sonra dünyəvi, demokratik, hüquqi dövlət quruculuğunda, Ulu öndər Heydər Əliyevin strateji xəttinin dəstəklənməsində, konstitusion dəyərlərimizin qorunmasında, habelə, xalqımızın ictimai-siyasi həyatında bütün tale yüklü məsələlərin həllində "Ədalət" səlahiyyətləri çərçivəsində yaxından iştirak etmişdir. "Ədalət" fəaliyyətə başladığı gündən bu günədək Azərbaycan jurnalistikasında hər bir jurnalist üçün örnək etalonu olmağı bacaqdı. O, hər kəsə sübut etdi ki, insan hüquq və azadlıqlarının qorunmasına dair qanunvericiliyin tələblərini pozmadan, şərəf və ləyaqəti alçaltmadan, heç kəsi böhtan və təhqirə məruz qoymadan jurnalistin qələmini ən kəsərli silaha çevirib özbaşına məmurun, korrupsiyaya qurşanmış oliqarxın, xalqın inkişafında əngələ çevrilmiş hər bir antipodun üstünə cəsarətlə getmək olar. Xalqın mənafeyi naminə hər bir qanunsuzluğu hayqıraraq hər kəsə bəyan etmək olar.

Bu müddət ərzində "Ədalət" öz adına və jurnalist prinsipiallığına sadiq qalaraq məzlumun yanında, zalımın qarşısında oldu. Dövlətinin və xalqının mövqeyində korrupsioner və harınlamış hər kəsin önündə olmağı bacardı. Haqlı ilə çiyin-çiyinə, haqsızla isə üzbəüz dayana bildi. Lazım olanda səngərdə əsgərin yanında, ehtiyac olduğu zaman tarlada kəndlinin yanında, məqamı gəldikdə Azərbaycan bayrağını qaldıran idmançının yanında, bir sözlə "Ədalət" hər zaman hər yerdə öz varlığını göstərdi. Bax bu idi "Ədalət"in ədaləti!

Ədalət xatirinə deməliyik ki, "Ədalət"ə hörmətli həmkarım, dəyərli jurnalist və millət vəkili Aqil Abbasın rəhbərlik etməsi "Ədalət"in bu keyfiyyətləri qazanmasında və inkişaf etdirməsində müstəsna rolu vardır. Azərbaycanın informasiya məkanına qədəm qoyduğu vaxtdan "Ədalət" qəzetində Aqil Abbasın "filan nazirin əmək haqqını filankəsov filankəs alır", "filan rayon icra hakimiyyətinin başçısı vəzifəsini filankəsov filankəs tutur " və s. kimi jurnalistik replikalarını hələ də xatırlayırıq. Obyektiv reallığa uyğun olmayan məlumatları dərc etmədən, söyüş söymədən, süründürməçi, bürrokrat, öz vəzifəsinin öhdəsindən gələ bilməyən məmurlarla mübarizənin səmərəli usulunu nümayiş etdirən Aqil Abbas Azərbaycan jurnalistikasının klassik ənənələrinə sədaqətini nümayiş etdirirdi və həmin ənənələrə sədaqət bu gün də özünü göstərməkdədir.

1992-ci ildə Azərbaycanın siyasi hakimiyyəti böhran yaşadığı bir vaxtda çalışdığım Azərbaycan Respublikasının Baş Prokurorluğundan qanunsuz olaraq xaric edildiyim vaxt "Ədalət"in ədalətsizliyə qarşı barışmaz mübarizəsinin şəxsən şahidi olmuşam.

Təbii ki, "Ədalət"in hər zaman Azərbaycanın haqq səsinin, eləcə də ermənilərin törətdiyi vəhşilik və soyqırımın dünyaya çatdırılmasında müstəsna xidmətləri olmuşdur. "Ədalət"in fəaliyyətinin bu prinsipləri ümumilikdə Aqil Abbasın bütün yaradıcılığında öz əksini tapıb. Qarabağ döyüşləri ilə bağlı Aqil Abbasın eyni adlı əsərinə çəkilmiş "Dolu" filmi həmin nümunənin bariz göstəricisidir. Həmçinin "Ədalət" respublika və dünyada baş verən hadisələri izləyicilərinə çatdıran, Azərbaycan Parlamentinin fəaliyyətini işıqlandıran informasiya vasitələrindən biridir. Müasir texnologiyanın sürətlə inkişaf etdiyi və informasiya müharibəsinin dərinləşdiyi bir dövrdə öz fəaliyyət istiqamətini dəyişməyən, əksinə öz mövqeyini daha da kəskinləşdirən "Ədalət" qəzetinin 5000-ci sayının dərc olunması Azərbaycan jurnalistikasının uğurudur.

Bu münasibətlə başda hörmətli həmkarım Aqil Abbas olmaqla, bütün "Ədalət"in zəhmətkeş və peşəkar kollektivini təbrik edirəm. Onalara bu çətin, lakin şərəfli işlərində yeni-yeni uğurlar arzulayıram".



**Millət vəkili Adil Əliyev:** "Xalqa, ədalətə xidmət edən bir metbu orqanını izləyirəm, dəstəkləyirəm və çox sevirəm. Başda həmkarım Aqil Abbas, İradə Tuncay olmaqla hamınızı təbrik edirəm, uğurlar arzulayıram".



**Milli Məclisin deputatı, YAP Səbail rayon təşkilatının sədri prof. Ş.H.Hacıyev:** "Hörmətli İradə xanım! Sizi və rəhbərlik etdiyiniz "Ədalət" qəzetinin əməkdaşlarını qəzetinizin beş mininci nömrəsinin çapdan çıxması münasibətilə səmimi qəlbdən təbrik edir, Sizə məsuliyyətli və şərəfli işinizdə uğurlar diləyirəm. Bu gün müstəqil hüquqi dövlət, sivil, demokratik vətəndaş cəmiyyəti quruculuğunda, insan hüquqlarının müdafiəsi, milli şüurun, sağlam mənəvi dəyərlərin formalaşmasında "Ədalət" qəzetinin xidmətlərini xüsusi qeyd etmək lazımdır. Qəzetinizin çoxşaxəli fəaliyyəti, toxunulan problemlərin aktuallığı, onların həll olunmasında göstərdiyiniz səylər geniş oxucu kütləsi tərəfindən böyük maraqla və rəğbətlə qarşılanır. Bu əzəmətli gündə Sizi bir daha ürəkdən təbrik edir, hər birinizə möhkəm can sağlığı, ailə səadəti, yeni-yeni müvəffəqiyyətlər arzulayıram. Qoy mətbuatın təməl prinsipləri olan qərəzsizlik, obyektivlik və ədalət xalqımızın, Vətənimizin qüdrətlənməsi, çiçəklənməsi naminə həmişə zəfər çalsın".

# qarşınızdadır!



**Millət vəkili Hüseynbala Mirələmov:** ""Ədalət" qəzetinin 5000-ci nömrəsinin işıq üzü görməsi münasibəti ilə qəzetin bütün əməkdaşlarını və başda qəzetin təsisçisi, həmkarım Aqil Abbası səmimi qəlbdən təbrik edirəm. Haqqında söz açdığımız "Ədalət" qəzeti cəmiyyətdə hər zaman özünəməxsusluğu ilə seçilən mətbu orqanlardan biridir. Hüquq qəzeti olmaqla yanaşı ədəbi sahəyə yer ayıran, ölkədə və dünyada baş verən hadisələri cəmiyyətə düzgün mövqedən çatdıran KİV-lər barmaqla sayılacaq qədərdir ki, "Ədalət" qəzeti də bu sırada ilk yerlərdən birini tutur. Milli mətbuatımızın şərəfli tarixində öz dəst-xətti ilə uğurlara imza atan "Ədalət" qəzetinə yeni-yeni uğurlar arzulayıram".



**Millət vəkili İqbal Məmmədov:** "Kütləvi İnformasiya Vasitələrinin bu qədər geniş yayıldığı və rəqabətin həddən artıq çətin olduğu bir dövrdə müəyyən bir kütlə tərəfindən izlənən, sevilən və oxunan qəzet və ya portal idarə etmək şübhəsiz çətin zəhmət və yüksək peşəkarlıq tələb edir. Yarandığınız gündən öz tərəfsizliyiniz, qərəzsiz və adınıza uyğun xəbərçilik nümunəsi ilə xüsusi oxucu auditoriyası formalaşdıra bilmişsiniz. Əminliklə deyə bilərəm ki, ölkəmizdə və dünyada baş verən hadisələrə obyektiv yanaşma və bitərəf mövqeyiniz on minlərlə oxucu tərəfindən rəğbətlə qarşılanmaqdadır. Qəzetinizin beş mininci nüsxəsinin işıq üzü görməsi münasibəti ilə bütün yaradıcı kollektivinizi səmimi qəlbdən təbrik edir, ən xoş arzularımı bildirirəm. Həyata keçirdiyiniz bu şərəfli və məsuliyyətli işiniz uğurlu, qələminiz iti, mürəkkəbiniz tükənməz olsun".



**Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru, AMEA-nın müxbir üzvü, professor İbrahim Cəfərov:** "Hörmətli Aqil müəllim, hörmətli İradə xanım, "Ədalət" qəzeti yarandığı 1990-cı ilin ilk günlərindən öz dəst-xətti, əhatə dairəsi, ideya-siyasi mövqeyi baxımından böyük oxucu auditoriyasının diqqətini cəlb edib. Qəzetinizin yarandığı illər ölkə üçün ağır illər idi. Siz bir yaradıcı kollektiv olaraq heç bir çətinlikdən qorxmayaraq daşıdığınız ƏDALƏT adına sadiq qaldınız, stabil rejimin olmadığı zamanda cəsarətinizi əsirgəmədiniz, qələminizi süngüyə çevirdiniz. Təbii ki, bütün bunların hamısı yaradıcısı və təsisçisi Aqil Abbas xarakterində, onun millətə, cəmiyyətə təmənnasız sevgisində təsdiqini tapırdı. "Ədalət" qəzetinin 5 mininci nömrəsi böyük rəqəm olmaqla yanaşı, həm də tarixi dəyərlərin yaşandığı rəqəmdir. Ölkə prezidenti cənab İlham Əliyevin azad mətbuata böyük diqqətinin və qayğısının nəticəsi olaraq "Ədalət" qəzeti bu gün daha qətiyyətli addımlar atır. Qəzetin baş redaktoru İradə xanım Tuncayın həssas qələm sahibi olması danılmaz faktdır. Bu da təbii ki, xalq şairimiz Ulu Məmməd Arazın ailə ocağından İradə xanımın yaradıcılığına cəsarət verən daha bir qüvvədir. Universitetin rektorluğu, professor-müəllim heyəti, tələbə kollektivi qəzetinizin hər bir nömrəsini diqqətlə izləyir. Qəzetinizin 5 mininci nömrəsinin işıq üzü görməsi münasibətilə Sizi və kollektivinizi ürəkdən təbrik edir, Sizə möhkəm can sağlığı, azad sözün qorunması naminə böyük yaradıcılıq uğurları arzulayırıq".



**Milli Məclisin deputatı Elşad Həsənov:** "Hörmətli Aqil müəllim və İradə Tuncay! Sizi və rəhbərlik etdiyiniz kollektivi "Ədalət" qəzetinin 5000-ci sayının işıq üzü görməsi münasibətilə səmimi qəlbdən təbrik edir, ölkəmizdə və dünyada baş verən hadisələrin obyektiv işıqlandırılması və ictimaiyyətə operativ çatdırılması sahəsindəki səmərəli fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayıram. Azərbaycan mətbuatı tarixində "Ədalət" qəzeti hər zaman öz dəst-xətti ilə seçilən nəşr kimi tanınır. "Ədalət" qəzetinə ictimai-siyasi və sosial mövzuların işıqlandırılmasında hər zaman ədalətli mövqe tutmağı diləyirəm".



**Millət vəkili Nəriman Əliyev:** "Hər bir millətin özünüdərkində, milli dirçəlişində, haqq, ədalət uğrunda mübarizəsində mühüm rol oynayan dəyərləri olub və olacaq. Millətlər məhz bu dəyərlər sayəsində ayaqda qala, mövcudluğunu qoruya bilir. Ölkənin sərvətlərinə göz dikən, istismar edən bütün müstəmləkəçilər milli direnişi qırmaq üçün ilk növbədə bu dəyərləri hədəfə alırlar. Yenicə müstəqilliyini bərpa etmiş Azərbaycanın da bu cür dəyərləri mövcuddur. Bunlardan biri də "Ədalət" qəzetidir. "Ədalət" qəzetinin 5000-ci sayının işıq üzü görməsi çox sevindirici haldır. Keçdiyi çətin və keçməkeşli yolda "Ədalət" qəzeti özünəməxsus informasiyalarla həmişə haqqın-ədalətin yanında olmağa çalışmışdır. Ömrün ən gözəl, ən coşqulu çağında olan "Ədalət" qəzetini və qəzetin bütün əməkdaşlarını yubiley münasibəti ilə səmimi qəlbdən təbrik edirəm".



**Millət vəkili Rüfət Quliyev:** "Təlatümlü 1990-cı ilin iyul ayında Azərbaycan mediası üfüqündə yeni bir ulduz parladı. Bu, adı kimi özü də ədalətə xidmət edən "Ədalət" qəzeti idi. O vaxtlar indiki kimi qəzet bolluğu olmasa da, yeni qəzet dərc etdiyi materialların aktuallığı ilə elə ilk saylarından diqqət mərkəzində oldu. Sovetlərin son bir ilində də, ondan sonrakı bir ildə də "Ədalət" qəzeti həmişə ədalətin keşiyində durdu, bütün təzyiq və təhdidlərə sinə gərdi, istər istiqlal mücadiləsi yolunda, istərsə də müstəqilliyimizin qorunub saxlanması yolunda öz dəst-xəttilə seçildi. İndi 5000-ci nömrəsinin çapdan çıxmasını bayram etdiyimiz "Ədalət" qəzeti bu illər ərzində öz ideyalarına və məslək yoluna sadiq qaldı, öz nüfuzuna xələl gətirməmiş və həmişə geniş oxucu kütləsinin səbirsizliklə gözlədiyi mətbu orqan olmuşdur. Sonradan qəzet oxucu auditoriyasını genişləndirərək, internetdə eyni adlı sayt yaratmışdır. Bu sayt da öz sələfi "Ədalət" qəzetinin estafetini uğurla davam etdirir və öz obyektivliyilə həmişə fərqlənir.

Hörmətli Aqil müəllim, Siz başda olmaqla "Ədalət" qəzetinin bütün yaradıcı kollektivini qəzetin 5000-ci nömrəsi münasibətilə ürəkdən təbrik edir, Sizə möhkəm can sağlığı, uzun ömür, ədəbi yaradıcılıqlarında yeni zirvələr, qələmlərinin həmişə iti və kəsirli olmasını arzulayıram!"



**Millət vəkili Tahir Süleymanov:** ""Ədalət" qəzeti yarandığı gündən Azərbaycan həqiqətlərinin insanlara çatdırılmasında böyük əmək sərf edib. Milli-mənəvi dəyərlərimizin, azərbaycançılıq ideologiyasının qorunması, onun təbliği işində özünü müsbət tərəfdən göstərib. Dünyada və regionda baş verən proseslər barədə yalnış məlumatların sürətlə yayılması dövründə, bizim obyektiv sözə ehtiyacımız var. Sevindirici haldır ki, məhz keçən dövrdə "Ədalət" bu işi yüksək səviyyədə həyata keçirə bilib. İnsanları dürüst, qərəzsiz informasiyalarla təmin etdi. Hazırda da öz ənənəsinə sadiqdir. Yarandığı gündən öz dəst-xətti üzrə özünü inkişaf etdirməyi bacaran "Ədalət"in bundan sonra da öz ənənələrinə sadiq qalacağına inanıram".



**"525-ci qəzet"in baş redaktoru Rəşad Məcid:** ""Ədalət" mənim sevimli qəzetimdir. İlk saylarının çıxmağını xatırlayıram. Aradan keçən illər ərzində "Ədalət" öz səviyyəsini, özünəməxsusluğu qoruyub saxlayıb. Mən 5000-ci nömrə münasibəti ilə Aqil Abbas və İradə Tuncayı və bütün əməkdaşları təbrik edirəm".



**"OLAYLAR" qəzetinin baş redaktoru Yunus Oğuz:** ""Ədalət" obyektiv, qərəzsiz və operativ informasiyalar yayması nəticəsində oxucu rəğbəti qazana bilib. Bu mətbuat orqanı fəaliyyəti dövründə ölkənin ictimai-siyasi həyatının bütün sahələrinə nüfuz etməyi bacarıb. Heç şübhəsiz ki, ölkə mətbuatında nüfuz qazanmaq, tanınmaq və ictimai rəyə təsir etmək hər çap olunan qəzetə nəsib olmur. Bu media orqanı isə keçdiyi zəngin inkişaf yolunda və qazandığı uğurlarda öz təcəssümünü tapır. Bu gün inamla demək olar ki, qəzet və informasiya agentliyi müasir jurnalistikanın bütün zəruri tələblərinə cavab verir, öz fəaliyyətində obyektivlik, dəqiqlik, operativlik prinsiplərinə əsaslanır. "Ədalət" məzmun zənginliyi, mövzu rəngarəngliyi sarıdan ciddi irəliləyişə nail olub, dizayn və materialların yerləşdirilməsi baxımından düzgün istiqamət tutmağı bacarıb. Qəzetin 5000-ci nömrəsinin işıq üzü görməsi münasibəti ilə bütün kollektivini, başda qəzetin təsisçisi Aqil Abbas və baş redaktor İradə Tuncayı təbrik edirəm".

**Ədil Ədilzadə**